**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# Q Ə R A R

№ 7/7

Bakı şəhəri 14 mart 2018-ci il

Azərbaycan Milli Elmlər Akademiyasının
Türk Dünyası Elmlər Akademiyaları Birliyinə
rəhbərlik etməsi və qarşıda duran vəzifələr haqqında

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2009-cu ildə keçirilmiş Naxçıvan Sammitinin qərarı ilə təsis edilmiş və Astana şəhərində yerləşən Beynəlxalq Türk Akademiyası müasir dövrdə geniş mənada türkologiyanı inkişaf etdirmək, türk xalqları arasında elmi-mədəni inteqrasiyanı daha da genişləndirmək, ortaq dərsliklər yaratmaq kimi strateji vəzifələri həyata keçirir. Əməkdaşlıq Şurasına daxil olan üzv dövlətlərin Elmlər Akademiyalarının səlahiyyətlərini əlaqələndirmək, ortaq elmi layihələr həyata keçirmək, birgə çoxcildlik nəşrlər hazırlayıb çap etdirmək, ortaq elmi mövqedən çıxış etmək məqsədilə yaradılmış Türk Dünyası Elmlər Akademiyaları Birliyinə 2016-cı ildə Qazaxıstan Elmlər Akademiyası, 2017-ci ildə isə Türkiyə Elmlər Akademiyası sədrlik etmişdir.

Türk Dünyası Elmlər Akademiyaları Birliyinin 27 noyabr 2017-ci il tarixli qərarı ilə 2018-ci ildə Birliyə sədrlik Azərbaycan Milli Elmlər Akademiyasına keçmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. 2018-ci ildə Türk Dünyası Elmlər Akademiyaları Birliyinə Azərbaycan Milli Elmlər Akademiyasının sədrlik etməsi haqqında Birlik üzvlərinin təklifi qəbul edilsin.
2. Azərbaycan Milli Elmlər Akademiyasının sədrliyi və Türk Dünyası Elmlər Akademiyaları Birliyinə üzv ölkələrin akademiyalarının iştirakı ilə 2018-ci ilin may-iyun aylarında Bakıda iclası keçirilsin.
3. Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən 2018-ci ildə Türk Dünyası Elmlər Akademiyaları Birliyinə üzv ölkələrin akademiyalarının alimlərinin iştirakı ilə Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və Türk Dünyası Muxtar Qurumlarının 100 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans təşkil edilsin.

4. Türk Dünyası Elmlər Akademiyaları Birliyinin səyyar iclasında və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və Türk Dünyası Muxtar Qurumlarının 100 illiyinə həsr olunacaq beynəlxalq elmi konfransda Birlik üzvü olan Elmlər Akademiyalarının (Beynəlxalq Türk Akademiyası, Türkiyə, Qazaxıstan, Qırğızıstan Elmlər Akademiyaları) rəhbər heyəti və Rusiya Federasiyası Muxtar Respublikalarının və Muxtar Vilayətlərinin (Tatarıstan, Başqırdıstan, Saxa-Yakutiya, Tuva, Xakasiya, Çuvaşiya) Elmlər Akademiyalarının rəhbərləri, habelə Monqolustan və Macarıstan Elmlər Akademiyalarının rəhbərləri dəvət olunsun.
5. Azərbaycan Milli Elmlər Akademiyasının İctimai və Humanitar elmlər bölmələri Türk Dünyası Elmlər Akademiyaları Birliyinin iclasının və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın təşkil olunmasını təmin etsinlər.
6. AMEA-nın İşlər idarəsi (siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev), AMEA Rəyasət Heyəti aparatının Hüquq və kadrlar idarəsi (hüquq üzrə fəlsəfə doktoru Rasim Ağasıyev), AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsi (biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva), AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsi (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) bu qərarın icrasından irəli gələn məsələləri həll etsinlər.
7. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə olunsun.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT